*UOT 316.6*

***Validə Rəcəb qızı Əliyeva***
*Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti,*
*psixologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0000-3036-4874*
*E-mail: v.aliyeva1@mail.ru*
*https://doi.org/10.69682/arti.2026.93(3).228-232*

# MODERNLƏŞMƏ PROSESİNDƏ ÜNSİYYƏTİN ROLU VƏ SOSİAL-PSİXOLOJİ DƏYİŞİKLİKLƏR

***Valida Radjab Aliyeva***
*associate professor at Azerbaijan State University of Economics*
*doctor of philosophy in psychology*

# THE ROLE OF COMMUNICATION IN THE PROCESS OF MODERNIZATION AND SOCIO-PSYCHOLOGICAL CHANGES

***Валида Раджаб гызы Алиева***
*доцент Азербайджанского Государственного Экономического Университета,*
*доктор философии по психологии*

# РОЛЬ ОБЩЕНИЯ В ПРОЦЕССЕ МОДЕРНИЗАЦИИ И СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ИЗМЕНЕНИЯ

**Xülasə.** Məqalədə modernləşmə prosesinin cəmiyyət həyatında rolu və bu prosesin sosial-psixoloji dəyişikliklərə təsiri təhlil olunur. Müəllif modernləşməni yalnız texniki və iqtisadi yenilənmə kimi deyil, eyni zamanda insanların düşüncə tərzində, davranış modellərində və ünsiyyət formalarında baş verən dəyişikliklər sistemi kimi səciyyələndirir. Məqalədə ünsiyyətin insan fəaliyyətinin zəruri şərti olduğu, şəxsiyyətin formalaşmasında, özünüdərkin inkişafında və sosial münasibətlərin qurulmasında mühüm rol oynadığı əsaslandırılır. Ünsiyyətin verbal və qeyri-verbal aspektləri, sosial normalar və sosial nəzarət mexanizmləri ilə qarşılıqlı əlaqəsi geniş şəkildə şərh edilir. Nəticə etibarilə, məqalədə modernləşmə prosesində ünsiyyətin cəmiyyətin sosial-psixoloji strukturunun formalaşmasında əsas amillərdən biri olduğu elmi-pedaqoji və sosial-psixoloji baxımdan əsaslandırılır.
***Açar sözlər:*** *modernləşmə, ünsiyyət, determinizm, dəyişiklik, sosial maneə, cəmiyyət, persepsiya, texniki tərəqqi refleksiya*

**Abstract.** The article analyzes the role of the modernization process in the life of society and its impact on socio-psychological changes. The author characterizes modernization not only as technical and economic renewal, but also as a system of changes occurring in people’s ways of thinking, behavioral models, and forms of communication. The article substantiates that communication is a necessary condition of human activity and plays an important role in personality formation, the development of self-awareness, and the construction of social relations. The verbal and non-verbal aspects of communication, as well as their interrelation with social norms and mechanisms of social control, are examined in detail. As a result, from scientific-pedagogical and socio-psychological perspectives, it is argued that in the process of modernization communication serves as one of the key factors in shaping the socio-psychological structure of society.
***Keywords:*** *modernization, communication, determinism, change, social barrier, society, perception, technological progress, reflection*

**Аннотация.** В статье анализируется роль процесса модернизации в жизни общества и его влияние на социально-психологические изменения. Автор характеризует модернизацию не только как техническое и экономическое обновление, но и как систему изменений, происходящих в образе мышления людей, моделях поведения и формах общения. В статье обосновывается, что общение является

необходимым условием человеческой деятельности и играет важную роль в формировании личности, развитии самосознания и построении социальных отношений. Подробно раскрываются вербальные и невербальные аспекты общения, их взаимосвязь с социальными нормами и механизмами социального контроля. В результате с научно-педагогической и социально-психологической точек зрения обосновывается, что в процессе модернизации общение выступает одним из ключевых факторов формирования социально-психологической структуры общества.

***Ключевые слова:*** *модернизация, общение, детерминизм, изменение, социальный барьер, общество, перцепция, технический прогресс, рефлексия*

Modernləşmə anlayışı cəmiyyətin zamanın tələblərinə uyğun şəkildə yenilənməsi və inkişaf etməsi prosesini ifadə edir. Bu proses elmi-texniki tərəqqi, iqtisadi dəyişikliklər, sosial münasibətlərin yenidən qurulması və mədəni transformasiya ilə müşayiət olunur. Modernləşmə yalnız xarici dəyişiklik deyil, həm də insanların düşüncə tərzində, davranış modellərində və ünsiyyət üsullarında dəyişiklik yaradır. Xüsusilə, qloballaşma şəraitində modernləşmə prosesi ünsiyyətin forma və məzmununa birbaşa təsir göstərir.

Qərbliləşmə (westernisation), ənənəvi düşüncə, inanc, həyat tərzi və sosial idarəetmə mexanizmlərini kökündən rədd edib bunların yerinə bu gün hegemon sivilizasiya olan qərb sivilizasiyasının yuxarıda sadalanan sahələrə uyğun dəyərlərini mənimsəmək, eyni zamanda qərb ölkələri xaricindəki ölkələri geri qalmış ölkələr olaraq qəbul edərək bütün sahələrdə qərbi təqlid etməkdir.

Modernləşmə cəmiyyətlərin tarixi inkişaf prosesində mühüm mərhələ kimi çıxış edir. O, sosial, iqtisadi, siyasi və mədəni sahələrdə baş verən yenilənmə və dəyişiklikləri ifadə edir. Müasir dövrdə modernləşmə yalnız texniki tərəqqi ilə məhdudlaşmır, eyni zamanda insanların düşüncə tərzinə, dəyərlərinə və ünsiyyət formasına da təsir göstərir. Bu baxımdan modernləşmə prosesinin cəmiyyətin sosial münasibətlərinə təsiri xüsusi əhəmiyyət kəsb edir. Tarixin hər mərhələsində cəmiyyətlər dəyişmiş və yenilənmişdir. Bu dəyişikliklərin ən mühüm formalarından biri modernləşmə prosesidir. Modernləşmə sadəcə texniki inkişaf deyil, insanların həyat tərzinin, dəyərlərinin və sosial münasibətlərinin yenidən formalaşması deməkdir. Bu dəyişikliklər isə ilk növbədə insanların bir-biri ilə ünsiyyətinə təsir göstərir. İnsanlar birgə yaşayış və birgə fəaliyyət zamanı daima bir-biri ilə informasiya mübadiləsi aparır, bir-birinə qarşılıqlı təsir göstərir və ya bir-birini qavrayır və anlayırlar. Başqa sözlə ünsiyyətə girirlər. İnsanın hər cür fəaliyyətində ünsiyyət zəruri şərt kimi özünü göstərir. Ünsiyyət olmadan insanların birgə fəaliyyəti həyata keçirməsi mümkün deyildir. Ünsiyyət prosesində insanlar nəinki sosial dəyişmələr haqqında məlumat əldə edir, eyni zamanda müxtəlif adət və vərdişlərə yiyələnir ki, bunlar da real varlığın dərk edilməsinə xüsusi istiqamət verir. Deməli, ünsiyyət, hər şeydən əvvəl, obyektiv varlığın dərk edilməsini təmin edən əsas şərtdir. Ünsiyyət eyni zamanda şəxsiyyətin formalaşmasına da müəyyən tərzdə istiqamət verir. Demək olar ki, şəxsiyyətin təşəkkülü müəyyən mənada ünsiyyət prosesinin məhluludur.

Psixoloji aspektdən ünsiyyət probleminin maraqlı cəhətlərindən biri də ondan ibarətdir ki, insanın özünü dərk etməsi, öz “mən”inə nəzər salması, özünü başqaları ilə müqayisə edərək qiymətləndirməsi belə ünsiyyət prosesinin məhlulu kimi qəbul edilə bilir. İnsan yalnız başqaları ilə ünsiyyət prosesində onları dərk edir.

Psixoloqlar belə bir fikri əsaslandırırlar ki, ünsiyyətin köməyi ilə fəaliyyət təşkil olunur və zənginləşir. Ünsiyyətə girən tərəflər arasında birgə fəaliyyət planının tərtibi onların hər birindən fəaliyyətin məqsəd və vəzifələrini bilməyi, obyektin spesifikasını, öz imkanlarını aydınlaşdırmağı tələb edir. Ünsiyyətin bu prosesə daxil olması onun iştirakçılarının “razılıq” və ya “narazılığı” həyata keçirmələrinə imkan verir.

Təsadüfi deyildir ki, beynəlxalq əlaqələrin inkişafı müxtəlif dillərə malik olan insanların ünsiyyətində, informasiya mübadiləsində çətinliklər yaradır. Bu cür çətinliyi aradan qaldırmaq üçün müxtəlif ölkələrdən olan insanların başa düşə biləcəyi simvollardan istifadə edilir. Bu məqsədlə o qədər də çətin olmayan görmə simvolları dünya miqyasında geniş yayılmışdır. Bu cür simvollara aeroportlarda, avtotraslarda daha çox rast gəlmək olur. Həmin simvolların köməyi ilə insanlar dayanacaqlar, yeməkxanalar, yanacaq və təmir yerləri və s. barədə məlumat əldə edirlər.

Tədqiqatlar prosesində aşkara çıxarmışlar ki, çox vaxt bədənin, üzün ifadəli hərəkətləri, qeyri – verbal yolla çatdırılan məlumatlar həmsöhbətə verbal yoldan daha güclü təsir göstərir.

Məsələn, insan sevincdən doğan göz yaşları ilə dostlarını inandırmağa çalışsa ki, "Məndə hər şey yaxşıdır!" onlar onun sözünə deyil, daha çox göz yaşına inanacaqlar.

Adətən modernləşmə prosesində fəaliyyət və ünsiyyət zamanı qarşılıqlı təsir müvafiq sosial normalar və sosial nəzarət əsasında həyata keçirildikdə özünün səmərəli nəticəsini verir.

Cəmiyyət spesifik sosial davranış normaları sistemi nümunələrini hazırlayır və müvafiq şəraitdə həmin normalara əməl etməyi özünün bütün üzvlərindən tələb edir. Bu normalar pozulduqda sosial nəzarət mexanizmi işə düşür (bəyənməmək, danlamaq, cəzalandırmaq şəklində) və davranışın korrersiyasına gətirib çıxarır. Burada həmin normaların cəmiyyətin bütün üzvləri tərəfindən qəbul olunması, həmin normaları etalon kimi qəbul etmələri və öz davranışlarını etalona uyğun qurmağa çalışmaları əsas şərtdir. Lakin bu hələ kifayət deyildir. Həmin normalara əməl olunmasına sosial nəzarət edilmədən bu normaların işləyəcəyi şübhə doğurur. Bunu gündəlik həyati faktlar da sübut edir. Adətən, sosial nəzarət zəif olduqda və ya ikili münasibət xarakteri daşıdıqda sosial normaların pozulması halları tez – tez özünü göstərir.

Qarşılıqlı təsir prosesində sosial nəzarət ünsiyyətdə olan adamların rollarına uyğun şəkildə həyata keçirilir. Psixologiyada rol altında kimin bu və ya digər mövqedən asılı olaraq hansı davranış modelini yerinə yetirməsi nəzərdə tutulur. Subyekt, bacı və ya qardaş, həkim və ya xəstə, müdir və ya işçi, ev yiyəsi və ya qonaq və s. rolunu yerinə yetirə bilər. Hər bir rol tamamilə müvafiq tələbə və ətrafdakılarının müvafiq gözləmələrinə cavab verməlidir. Adətən ünsiyyətdə olan adamlar bir- birindən öz rolunu onun gözlədiyi kimi yerinə yetirməsini istəyirlər. Məsələn, şagirdlər gözləyirlər ki, müəllim onlara yaxşı dərs desin, yüksək qiymət versin, onların istəyini yerinə yetirsin və s. Müəllim isə gözləyir ki, şagirdlər dərsə yaxşı hazırlaşsın, intizamı pozmasın, müəllimin tapşırıqlarını yerinə yetirsin. Məhz buna görə də müxtəlif rolları yerinə yetirən adamların qarşılıqlı təsiri onların rol gözləmələri ilə tənzim olunur. İnsanın istəyib – istəməməsindən asılı olmayaraq onu əhatə edənlər ondan müvafiq nümunəyə uyğun davranış gözləyirlər. Rolun bu və ya digər şəkildə yerinə yetirilməsi mütləq sosial qiymət alır, roldan hər hansı bir kənara çıxma halı bəyənilmir.

İnsanın başqalarının ondan eşitmək istədiklərini və onda görmək istədiklərini səhvsiz, dəqiq çatdırmaq qabiliyyət və bacarığı mərifət adlanır. Əgər subyektin prinsip və inamı ondan gözləniləne ziddirsə onun başqa cür hərəkət etməsini mərifətsizlik adlandırmaq olmaz.

İnsanlar arasında ünsiyyətin xüsusi forması dostluq ünsiyyətidir. Dostluq davamlı fərdi – seçici qarşılıqlı münasibət və qarşılıqlı təsir sistemindən ibarətdir. Dostlar arasında olan ünsiyyət adamların bir – birilə qarşılıqlı bağlılığı, sədaqətliliyi, bir – biri ilə ünsiyyətdən məmnunluqları, bir – birindən qarşılıqlı hiss və arzuları gözləmələri ilə səciyyələnir. Dostluğun inkişafı qarşılıqlı anlama, ürəyiaçıqlıq, etibarlılıq, fəal qarşılıqlı kömək, bir – birinin işlərinə qarşılıqlı maraq, səmimilik və təmənnasız hisslərin olması kimi yazılmamış kodeksə əməl etməyi tələb edir. Dostluq kodeksinin ciddi şəkildə pozulması ya dostluğun dayandırılmasına, ya üzdən həyata keçən yoldaşlığa keçməsinə, ya da düşmənçiliyə səbəb ola bilər.

Ünsiyyət prosesinin xarakteri insanların birgə fəaliyyətinə, qarşılıqlı münasibətlərinə özünəməxsus təsir göstərir. Bir çox hallarda ünsiyyət prosesi münaqişələrlə müşayiət olunur və qarşılıqlı münasibətə neqativ təsir göstərir. Hamımız olmasaq da bəzilərimiz bu cür münaqişəli şəraitdən çıxmaq üçün müvafiq yol tapa bilmirik. Ünsiyyət zamanı baş verən bu cür maneələri aradan qaldırmaq yollarını nə orta, nə də ali məktəblərdə öyrətmirlər. Lakin sosial psixologiya və pedaqogikada bununla bağlı olduqca zəngin empirik və nəzəri məlumatlar toplanmışdır ki, onlardan istifadənin ünsiyyət maneələrinin qarşısını almaqda rolu inkarolunmazdır

Ünsiyyətin səmərəli keçməməsinə səbəb olan maneə kimi resipientin xətrinə dəyən söz və ifadələrdən istifadə edilməsini də qeyd etmək olar. Şübhəsiz dinləyiciyə "Sən qorxaqsan, tənbəlsən, satqınsan" və s. şəklində deyilən söz ciddi narazılığa səbəb ola bilər.

Ünsiyyətin səmərəliliyi və onun iştirakçılarının bu prosesdə qarşılıqlı təsirində maneə rolunu oynayan səbəblərdən biri də insanların həmin prosesdə ehtiyatlı hərəkət etməməsi, danışığında əmr üslubundan istifadə etmələri, başqa sözlə avtokratik mövqe tutmalarıdır.

Ünsiyyət zamanı mövcud ola biləcək maneələri azaltmaq və baş verə biləcək münaqişənin qarşısını almaq üçün "səmərəli ünsiyyət qay

daları"ndan istifadə olunması zəruridir. Mütəxəssislər bu cür qaydalara aşağıdakıları aid edirlər:

1. Öz çıxışına başlamazdan əvvəl dinləyicilərə nələri çatdırmaq istədiyini bildirmək, başqa sözlə öz ideyalarını aydınlaşdırmaq zəruridir.
2. Qısa cümlələrlə (5 – 9 sözdən ibarət ) danışmağa çalışın. Bu cür cümlələr qavrama və anlama üçün daha çox səmərəlidir.
3. Öz nitqinizdə fasilələrdən istifadə edin.
4. Öz nitqinizdə aydın olmayan, ikimənalı ifadələrdən eləcə də professionallıqdan qaçmağa çalışın.
5. Həmsöhbətinizin qeyri – verbal siqnallarına (mimika və jestlər və s.) nəzər salın.
6. Kateqoriyallıqdan qaçmağa çalışın. Nəzərə alın ki, sizin fikriniz yanlış ola bilər.
7. Ünsiyyət yeri və vaxtını düzgün seçin.
8. Daima öz nöqteyi-nəzərinizi dəyişdirməyə hazır olun.
9. Səmərəli dinləmə qaydasına əməl edin.

Bu qaydalar aşağıdakılardan ibarətdir:

– Həmsöhbətinizin sözünü kəsməyin.
– Həmsöhbətinizə qarşı diqqətli olun.
– Tələsik nəticə çıxarmayın.
– Həmsöhbətinizin ifadəsinə sakit reaksiya verin.
– Diqqətinizi yayındırmayın.
– Təfəkkür tempinizi nitqə uyğunlaşdırın.
– Həmsöhbətinizlə əks əlaqə yaratmağa çalışın.

Ünsiyyət prosesində insanlar təkcə informasiya mübadiləsi aparmaqla, bir-birinə qarşılıqlı təsir göstərməklə kifayətlənmir, eyni zamanda bir-birlərini qavrayır və anlayırlar. Bu ünsiyyətin perseptiv cəhətini təşkil edir. Ünsiyyətin perseptiv cəhəti heç də digər cəhətlərindən az əhəmiyyətə malik deyildir.

Həqiqi ünsiyyət o zaman mümkün olur ki, qarşılıqlı təsir prosesinə daxil olan insanlar özlərinin qarşılıqlı anlama səviyyələrini qiymətləndirə, tərəf müqabillərinin hansı keyfiyyətlərə malik olması barədə özlərinə hesabat verə bilsinlər. Ona görə də ünsiyyətin iştirakçıları şüurlarında bir-birinin daxili aləmini yaratmağa, hisslərini, davranış motivlərini, əhəmiyyətli obyektlərə münasibətini anlamağa cəhd göstərirlər. Başqa sözlə, bir-birini dəqiq qavramağa və anlamağa çalışırlar. Qavrama və anlama nə qədər dəqiq və ətraflı olarsa onların qarşılıqlı münasibətləri də bir o qədər səmərəli xarakter daşıya bilir. Fərd başqa adamları dərk etməklə onlarla birgə fəaliyyətin perspektivlərini daha yaxşı müəyyənləşdirmək imkanı əldə edir. Məhz onların daxili aləmlərinin dəqiq «öyrənilməsi» birgə fəaliyyətlərinin müvəffəqiyyətlə həyata keçməsi üçün mühüm şərtdir. İnsanın başqalarını qavraması zamanı təkcə subyektin başqalarını anlaması deyil, onunla ünsiyyətə girən, təmasda olan fərdin onu necə qavraması və anlamasına diqqət yetirilməsi də vacibdir. Subyektin ünsiyyətdə olduğu adamlar tərəfindən necə qavranıldığını dərk etməsi refleksiya formasında baş verir. Psixoloqlar refleksiyanı başqa adamları qavramanın tərkibinə daxil edirlər. Deməli, insanların bir-birini qavramasını güzgünün ikiqat əks etdirməsinə bənzətmək mümkündür. İnsan başqasını əks etdirməklə, həmin başqasını əks etdirmə güzgüsündə özünü də əks etdirir. Bu zaman ünsiyyətdə eyniləşdirmə və refleksiya vəhdətdə baş verir.

Beləliklə, modernləşmə prosesi cəmiyyətin bütün sahələrini əhatə edən mürəkkəb və çoxşaxəli dəyişikliklər sistemi kimi çıxış edir. Bu proses yalnız texniki və iqtisadi yenilənmə ilə məhdudlaşmır, eyni zamanda insanların düşüncə tərzinə, davranış modellərinə və sosial münasibətlərinə də təsir göstərir. Xüsusilə ünsiyyət müasir cəmiyyətin formalaşmasında və sosial dəyişikliklərin istiqamətlənməsində mühüm rol oynayır.

Modernləşmə şəraitində ünsiyyətin səmərəliliyi sosial normalara əməl olunmasından, qarşılıqlı anlama və hörmət prinsiplərinin qurulmasından asılıdır. Verbal və qeyri-verbal ünsiyyət vasitələrinin düzgün seçilməsi, sosial rolların adekvat yerinə yetirilməsi və refleksiya qabiliyyətlərin inkişafı sosial münasibətlərin sağlam şəkildə qurulmasına şərait yaradır.

**Nəticə**

Aparılan təhlil göstərir ki, modernləşmə prosesi cəmiyyətin struktur və funksional xüsusiyyətlərini köklü şəkildə dəyişdirən, çoxsəviyyəli və dinamik xarakter daşıyan sosial hadisədir. Bu proses yalnız elmi-texniki və iqtisadi yenilənmə ilə məhdudlaşmır, eyni zamanda insanların şüurunda, dəyərlər sistemində, davranış modellərində və sosial münasibətlərində dərin transformasiyalara səbəb olur. Bu baxımdan modernləşmə fərdin və cəmiyyətin qarşılıqlı təsir mexanizmlərini yenidən formalaşdıran sosial-psixoloji dəyişikliklər kompleksi kimi çıxış edir. Tədqiqatın nəticələri əsasında demək olar

ki, ünsiyyət modernləşmə prosesində sosial-psixoloji strukturun formalaşmasında əsas amillərdən biridir. Verbal və qeyri-verbal kommunikasiya vasitələrinin adekvat tətbiqi, sosial rolların düzgün icrası, sosial normalara riayət olunması və refleksiya qabiliyyətinin inkişafı sosial münasibətlərin sabitliyini və səmərəliliyini təmin edir. Ünsiyyət prosesində perseptiv mexanizmlərin – qarşılıqlı qavrama, anlama və əks əlaqənin – düzgün qurulması sosial maneələrin və münaqişələrin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir. Beləliklə, modernləşmə şəraitində cəmiyyətin dayanıqlı inkişafı üçün səmərəli ünsiyyət mədəniyyətinin formalaşdırılması strateji əhəmiyyət daşıyır. Sosial-psixoloji baxımdan əsaslandırmaq olar ki, ünsiyyət yalnız informasiya mübadiləsi vasitəsi deyil, həm də şəxsiyyətin təşəkkülü, sosial identikliyin qurulması və ictimai həmrəyliyin təmin edilməsinin fundamental şərtidir. Buna görə də modern cəmiyyətin inkişafında ünsiyyət mədəniyyətinin yüksəldilməsi elmi-pedaqoji və praktik müstəvidə prioritet istiqamətlərdən biri kimi qiymətləndirilməlidir.

**Problemin aktuallığı.** Modernləşmə prosesi müasir dövrdə cəmiyyətlərin sosial, iqtisadi, mədəni və texnoloji sahələrdə sürətlə dəyişməsini şərtləndirən əsas faktorlardan biridir. Qloballaşma, informasiya və kommunikasiya texnologiyalarının inkişafı, beynəlxalq əməkdaşlığın genişlənməsi və fərdi fəaliyyətin şaxələnməsi şəraitində ünsiyyətin rolu daha da aktuallaşır. İnsanların davranış modelləri, də-yərləri və sosial münasibətləri daim dəyişdiyi üçün ünsiyyət proseslərinin təhlili və səmərəli idarə olunması cəmiyyətin dayanıqlı inkişafı üçün vacibdir.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, modernləşmə prosesində ünsiyyətin sosial-psixoloji təsirləri sistemli şəkildə təhlil edilir və onun yalnız informasiya mübadiləsi vasitəsi olmadığını, həm də şəxsiyyətin formalaşması, sosial identikliyin qurulması və cəmiyyətin sosial-psixoloji strukturunun formalaşmasında aparıcı amil olduğunu göstərir.

**Problemin praktik əhəmiyyəti.** Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, modernləşmə şəraitində ünsiyyət proseslərinin səmərəli təşkilinə dair konkret tövsiyələr və metodoloji yanaşmalar təqdim olunur. Verbal və qeyri-verbal ünsiyyət vasitələrinin düzgün seçilməsi, sosial rolların adekvat icrası, sosial normalara riayət və refleksiya bacarıqlarının inkişaf etdirilməsi fərdlərin qarşılıqlı anlaşmasını, əməkdaşlığını və sosial münasibətlərinin stabilliyini təmin edir.

## Ədəbiyyat


1. Bayramov, Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. –Bakı: 2002. – 620 s.
2. Əmiraslanova, S.F. Ünsiyyətdə maneələr və onların aradan qaldırılması yolları haqqında // –Bakı: ADU-nun Elmi xəbərləri, –2013. № 3, –s. 330-334.
3. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri / –Bakı: Pedaqogika, 2004. – 432 s.
4. Bayramov, Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Dərslik. / –Bakı: Qapp-PoIiqraf, –2003, –356 s.
5. Anthony, G. Runaway World: How Globalisation is Reshaping Our Lives. / –London: Profile Books, –2002. –104.p
6. Ulrich Beck. *World at Risk*. / – Cambridge: Polity Press, –2009. –p. 27
7. Zygmunt Bauman. *Liquid Modernity* / – Cambridge: Polity Press, –2000. – p. 232
8. Manuel Castells. *The Rise of the Network Society* (2nd ed.). / –Oxford: Wiley-Blackwell, –2010. – p. 66
9. Ronald Inglehart & Christian Welzel. *Modernization, Cultural Change, and Democracy* / – Cambridge: Cambridge University Press, –2005. – p.344
10. Peter Wagner. *Modernity as Experience and Interpretation* / –Cambridge: Polity Press, –2008. – p. 296
11. Shmuel, N. Eisenstadt. Multiple Modernities /- New Brunswick: Transaction Publishers, - 2002. https://voidnetwork.gr/wp-content/uploads/2016/10/Multiple-Modernities-by-S.N.Eisenstadt.pdf
12. Jürgen Habermas. The Divided West. / Cambridge: Polity Press, –2006.
13. https:// onlinelibrary. wiley.com/doi/10.1111/j.1468-2427.2007.00749_3.x


**Redaksiyaya daxil olub:** 17.03.2026